*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 3*
*Səhifə: 54-61*
*http://dx.doi.org/10.59849/2663-4406.2024.3.54*
*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının ümumtəhsil məktəblərində tədrisinə dair

**Əzizağa Nəcəfzadə**
Filologiya elmləri doktoru, dosent
Qarabağ Universiteti
E-mail: azizaga.najafov@karabakh.edu.az

**Annotasiya.** Məqalədə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının orta ümumtəhsil məktəblərində tədrisi haqqında ətraflı məlumat verilir. Bu əsərin Azərbaycanda tədris tarixinə ümumi nəzər salınır, müasir dövrdə tədrisi zamanı qarşıya çıxan əsas problemlər şərh olunur, poemanın şagirdlər tərəfindən mənimsənilməsini daha səmərəli edən təkliflər irəli sürülür. Mövzu ilə əlaqədar mövcud metodiki ədəbiyyat fonunda əsərin tədrisinə dair fikir bildirilir. Ümumtəhsil məktəblərinin ədəbiyyat fənni üzrə hazırkı proqramında Füzulinin "Leyli və Məcnun" poemasının tədrisinə ayrılan saatlar, dərslərin məzmunu və mərhələlərinin təşkili şərh olunur. Hər dərsə və mərhələyə uyğun tədris metodları nəzərdən keçirilir. Məqalədə irəli sürülən əsas müddəalardan gənc müəllimlər peşəkar fəaliyyətində, ali məktəblərdə dərs deyən müəllimlər "Ədəbiyyatın tədrisi metodikası" fənni üzrə mühazirə mətnlərini hazırlayarkən Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə təhsil alan tələbələr seminar məşğələlərində mövzuya dair dərs vəsaiti kimi istifadə edə bilərlər.

**Açar sözlər:** Məhəmməd Füzuli, "Leyli və Məcnun", poema, tədris metodikası

**Məqalə tarixçəsi:** göndərilib – 16.06.2024; qəbul edilib – 30.06.2024

# About teaching Mahammad Fuzuli's poem "Leyli and Majnun" in secondary schools

**Azizagha Najafzadeh**
Doctor of Philological Sciences, Associate professor
Karabakh University
E-mail: azizaga.najafov@karabakh.edu.az

**Abstract.** The article provides detailed information about the teaching of the poem "Leyli and Majnun" by the great Azerbaijani poet and thinker Mahammad Fuzuli in secondary schools. A general overview of the history of teaching this work in Azerbaijan is given. The main problems that arise when teaching a work in modern times are explained. Suggestions are put forward that will make the poem more effective for students to assimilate. Based on the available methodological literature on the topic, a conclusion on teaching the work is given. The current curriculum of secondary schools in the subject "Literature" explains the hours allocated for teaching Fuzuli's poem "Leyli and Majnun", the content of lessons and the organization of stages. Teaching methods suitable for each lesson and stage are considered. Young teachers in their professional





activities, teachers of higher educational institutions, when preparing texts of lectures on the subject "Methodology of teaching literature", as well as students studying the specialty "Teaching Azerbaijani language and literature", can use the main conclusions of the article as a teaching aid on the subject in seminar classes.

**Keywords:** Mahammad Fuzuli, "Leyli and Majnun", poem, teaching methodology

**Article history:** received – 16. 06.2024; accepted – 30.06.2024

## Giriş / *Introduction*

Məhəmməd Füzulinin həyat və yaradıcılığının ümumtəhsil məktəblərində tədrisi, onun bədii cəhətdən mükəmməl və məzmun baxımından fəlsəfi-irfani yük daşıması etibarilə dərin əsərlərinin şagirdlərə öyrədilməsi, ilk növbədə, müəllimdən geniş dünyagörüşü, nəzəri baxımdan hazırlıqlı olmaq, pedaqoji ustalıq və əlbəttə ki, Füzuliyə qədər və ondan sonrakı klassik ədəbi irsimizə bələdlik tələb edir. Füzulinin bədii dil texnikasına, onun həyata, insana fəlsəfi yanaşma tərzinə vaqif olmayan müəllim şagirdlərinə dahi sənətkarın əsərlərini öyrədə, onun irsini sevdirə, onlarda bu mükəmməl sənət incilərini mütaliə etməyə həvəs oyandıra bilməz.

Füzulini gənclərə sevdirən, əsl məhəbbətin nə olduğunu izah edən, özgənin seçiminə hörmət bəsləməyi tərbiyə edib, mərhəmət hissi oyadan, həqiqət uğrunda çarpışmağa səsləyən əsərlərindən biri də "Leyli və Məcnun" poemasıdır. Bu əsərin elm və texnika əsrində yaşayan, romantikadan uzaq müasir yeniyetmələrə öyrədilməsi çətin olduğu qədər vacibdir. Belə ki, Füzulinin "Leyli və Məcnun" əsərinin orta ümumtəhsil məktəblərində tədrisi həm şagirdləri insan və təbiət haqqında daha dərindən düşünməyə vadar edir, həm də onların bədii zövqünü formalaşdırır. Bu əsər qloballaşma mühitində formalaşan gələcəyimiz olan gəncləri milli kökə bağlayır, onları şeir və muğam dünyasına dalmağa dəvət edir.

## Əsas hissə / *Main part*

"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" 2006-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edildikdən sonra ümumtəhsil məktəblərində də tədris prosesi qarşısında yeni tələblər qoyuldu və öyrətmənin müasir dünya standartlarına uyğunlaşdırılması məqsədi ilə təhsildə islahatlara başlanıldı. 2010-cu ildə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" adlı sənəd qəbul edildi, Azərbaycan Respublikası təhsil nazirinin əmri ilə ümumi təhsilin fənn kurikulumları təsdiqləndi və pedaqoji ictimaiyyətin istifadəsinə verildi. İrəli sürülən tələblərdən çıxış edərək yeni təkmilləşdirilmiş fənn tədris proqramları tərtib edildi, onlara müvafiq yeni dərsliklər yazıldı. Azərbaycan tədris sistemində 2009/2010-cu tədris ilində milli kurikulumun tətbiqinə başlanıldı. On beş ilə yaxındır ki, bu proses gedir. Əvvəlcə orta ümumtəhsil məktəblərinin müəllimləri tərəfindən o qədər də asanlıqla qəbul edilməyən bu sistem artıq oturuşub və başqa fənlərdə tətbiq olunduğu kimi, Ədəbiyyat fənninin tədrisində də geniş istifadə olunur. Müəllimlərimiz irəli sürülən təhsil standartlarına müvafiq tədris prosesini təşkil etməyə çalışırlar. Lakin bu sahədə müəllimlərimizə dəstək olacaq metodiki vəsait çox azdır, yaxud yox dərəcəsindədir. Olanlar da ümumi xarakter daşıyır. Ali məktəblərimizdə bu istiqamətdə iş aparарkən, yəni gənc müəllimlərin hazırlanmasında hələ də müstəqilliyimizin ilk illərində, hətta bəzən sovet dövründə qələmə alınan metodik vəsaitlərdən istifadə edirlər.

Metodiki vəsaitlərin çatışmazlığı ədəbiyyatın, xüsusən də klassik irsimizin tədrisi sahəsində daha qabarıq hiss olunur. Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin həyat və yaradıcılığında gənc müəllimlərə müasir təhsil standartlarına müvafiq dərs hazırlamaqda kömək olacaq metodiki

vəsait isə demək olar ki, yoxdur. Görkəmli füzulişünas alimlərdən Lalə Əlizadənin 1995-ci ildə çap olunmuş "Füzulini tədris edərkən" başlıqlı dərs vəsaiti vaxtilə gənc müəllimlərin stolüstü kitabı idisə [4], hazırda qüvvədə olan fənn kurikulumuna uyğun gəlmir, Ataəmi Mirzəyevin 2011-ci ildə dərc olunan "Füzulinin "Əql yar olsaydı..." qəzəlinin təhlili" adlı məqaləsi metodik tövsiyə kimi istifadə olunurdusa da, hazırkı dərs proqramlarından bu qəzəl çıxarılmışdır [8].

Düzdür, son illərdə bu yöndə bir neçə məqalə yazılıb. İnternet resurslarında yerləşdirilən həmin məqalələr Nərminə Fazilovanın 2021-ci ildə dərc olunan "Füzulinin "Leyli və Məcnun" poemasında Zeyd obrazı və onun tədrisinə dair" [5], Bilal Həsənlinin 2022-ci ildə dərc etdirdiyi "X sinif ədəbiyyat dərslərində Məhəmməd Füzulinin həyat və yaradıcılığının öyrənilməsi təcrübəsindən" [6], İmran Verdiyevin 2024-cü ildə yenicə işıq üzü görən "Məktəbdəki Füzuli: şairin irsinin tədrisi tarixinə bir nəzər" [9] məqalələridir. Bu məqalələr isə Məhəmməd Füzulinin həyat və yaradıcılığının ümumtəhsil məktəblərinin VIII-X siniflərində tədrisini tam əhatə etmir. Bu zərurətdən çıxış edərək Füzulini orta məktəbdə tədris edən gənc müəllimlərə və ali məktəblərdə Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisası üzrə təhsil alan tələbələrə kömək olacaq xüsusi metodik vəsaitə ehtiyac duyulur.

Bu zərurətdən çıxış edərək ümumtəhsil məktəblərinin X sinfində Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının tədrisinə dair fikirlərimizi bölüşmək istərdik.

Qeyd edək ki, hazırda orta ümumtəhsil müəssisələrinin VIII sinifləri üçün "Ədəbiyyat" fənni üzrə tədris proqramına Məhəmməd Füzulinin "Söz" qəzəli, X sinifləri üçün tədris proqramına "Məni candan usandırdı..." qəzəlinin tədrisi daxil edilib. Beləliklə, şagirdlər əvvəl Füzuli lirikası, daha sonra onun şah əsəri "Leyli və Məcnun" poeması ilə tanış olurlar.

X siniflərin "Ədəbiyyat" fənni üzrə tədris proqramında Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının öyrədilməsinə dörd saat vaxt ayrılıb. Birinci və ikinci dərs "Məzmun üzrə iş", üçüncü və dördüncü dərs isə "Təhlil üzrə iş" üçün nəzərdə tutulub.

Birinci dərs "Leyli və Məcnun" poemasından seçilmiş hissələrin oxusu ilə başlayır. Bu zaman şagirdlər qarşısında müəyyən qaydalara əməl etmək tələbi qoyulur. Həmin qaydalar mətnin şagirdlər tərəfindən növbə ilə, dərslikdə verildiyi kimi desək, bir-birini əvəz etməklə səsli oxunuşu, hər hissənin oxusu bitəndən sonra orada olan çətin anlaşılan sözlərin lüğətdən və poemanın məktəblilər üçün hazırlanmış çap variantındakı şərhlərdən istifadə etməklə aydınlaşdırılması, maraqlı gələn və orijinal məcazların işləndiyi misraların müəyyən edilməsi, kiçik qruplara bölünərək verilən suallar əsasında dərsi əhatə edən təqdimatın hazırlanmasıdır.

Qeyd edək ki, dərslikdə poemanın "Kitabın yazılmasının səbəbi", "Məcnunun anadan olması və uşaqlığı", "Məcnunun Leylini məktəbdə görməsi", "Anasının Leyliyə nəsihəti" parçaları yer alır. Müqayisə üçün deyək ki, 2000/2001-ci tədris ilində ümumtəhsil məktəblərinin 9-cu sinifləri üçün hazırlanmış "Ədəbiyyat müntəxəbatı" adlı dərs vəsaitində poemanın "Saqinamə", "Məcnunun anadan olması və uşaqlığı", "Məcnunun Leylini məktəbdə görməsi", "Anasının Leyliyə nəsihəti", "Leylinin anasına cavabı", "Qəzəli-Leyli", "Məcnunun Leyliyə səhrada rast gəlməsi", "Məcnunun atasının Leyli üçün elçiliyə getməsi və rədd cavabı alması", "Məcnuni-biçarənin Kəbəyə üz tutması və Allaha müraciəti", "Qəzəl Məcnuni-dilpəzirindir", "Nofəlin Məcnunla söhbəti", "Məcnunun Nofələ öz dərdini izhar etməsi", "Bu qəzəl Məcnuni-zarındır", "Leylinin İbn Səlama nikah edilməsinin Məcnuna xəbər verilməsi", "Leylinin İbn Səlama ərə gedəndən sonra Məcnunun ona göndərdiyi məktub", "Leylinin Məcnuna cavab məktubu", "Atasının Məcnunla vidalaşması", "Leylinin ölümü", "Leylinin vəfatından Məcnunun xəbərdar olması və bu dərdə dözməyib ölməsi", "Tamameyi-süxən" ("Əhvalatın bitməsi"), "Cavabi-məsələ" hissələri verilir. Bundan əlavə, müntəxəbatda "Leyli və Məcnun" poemasının qısa məzmunu da nəql edilir.

Əvvəlki dərs vəsaitində tərtibçinin göstərdiyi kimi, hələ ixtisarla verilən poemadan seçilmiş bu parçaların təkcə başlıqlarını belə oxuyanda şagirddə əsərin süjet xətti haqqında ümumi təəssürat yaranırdı. Biz də dərslikdə poemanın hissələrinin bu qədər təfsilatlı verilməsinin əleyhinəyik. Lakin





yaxşı olardı ki, müasir dərsliklərdə də əsərin qısa məzmunu nəql oluna idi. Çünki heç kəsə sirr deyil ki, heç də bütün şagirdlər müəllimin tələbi ilə ev tapşırığı kimi verilən poemanın hissələrini əlavə kitabdan oxumur. Poemanın tam məzmununu bilmədən isə şagird onun ideyasını dərk edə bilməz. Nəzərə çatdıraq ki, qeyd etdiyimiz müntəxəbatda əsərin məzmunu ümumilikdə bir səhifə həcmindədir [2, s.141-142]. Onun müasir dərsliklərə də əlavə olunması məsləhətdir. Belə ki, bu əsər yeniyetmələrə həqiqi eşqin nə olduğunu anladır. Yalnız əsər haqqında tam təəssüratı olan gənc eşqin təkcə iztirab və qəmdən ibarət olmadığını, həm də bir ruhi kamillik bəxş etdiyini dərk edir.

Haşiyəyə çıxaraq onu da qeyd edək ki, təhsil tariximizə nəzər salsaq, Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının hələ XVII əsrdən dərs vəsaiti kimi istifadə olunduğunu, XIX əsrdə isə ilk dərsliklərimizə daxil edildiyini görə bilərik. Təhsil tarixçilərinin qeyd etdiyinə görə, XIX əsrin ortalarında Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması və bəzi qəzəlləri tədris vəsaiti kimi istifadə olunmaq məqsədi ilə ayrıca kitab halında çap olunub. Deməli, təhsil sistemimizdə şagirdlərin bu poemanın tam məzmunu ilə tanış olması bir ənənədir.

Müasir dərslik müəllifləri birinci dərsin ev tapşırığında şagirdlərə "Leylinin anasına cavabı", "Məcnunun Leyliyə səhrada rast gəlməsi", "Məcnunun atasının Leyli üçün elçiliyə getməsi və rədd cavabı alması", "Nofəlin Məcnunla söhbəti", "Nöfəlin ikinci dəfə vuruşub qalib gəlməsi və əhdinə yalan olması", "Leylinin İbn Səlama nikah edilməsinin Məcnuna xəbər verilməsi", "Atasının Məcnunu səhrada tapması və nəsihətlə yola gətirməkdə aciz qalması", "İbn Səlamın vəfat etməsi və Leylinin bəladan nicat tapması" hissələrini poemadan müstəqil oxumaları tapşırılır.

Ev tapşırığında şagirdlərdən müstəqil oxu zamanı hər parçada ifadə olunan mühüm fikirləri müəyyən etmək, tanış olmayan sözlərin mənasını izahlı lüğətdən və poemanın yer aldığı mənbənin sonuna əlavə olunan lüğətçədən tapmaq, daha maraqlı hesab etdiyi məcazları dəftərinə köçürmək və nəhayət, yazılı qeydlər aparıb şifahi təqdimat hazırlamaq tələb olunur.

Mətnin məzmunu üzərində iş növbəti dərsdə də davam edir. Şagirdlər ev tapşırığını fərdi qaydada təqdim etmir, qruplara bölünərək müəllimin təhrikedici sualları əsasında müzakirə prosesinin nəticəsi kimi təqdim edirlər. Təqdimat hazırlayan şagirdlər isə öz qənaətlərini bir növ fikir mübadiləsi mühitində yoldaşları ilə bölüşür. Müəllimin qruplara təqdim etdiyi suallar təqribən aşağıdakılar kimi olmalıdır:

- *Leyli günahsız olduğuna anasını necə inandırır?*
- *Gəzintidə təsadüfən qarşılaşan Leyli və Məcnun üçün bu görüş necə nəticələnir?*
- *Leylinin atası elçilərə rədd cavabını nə ilə əsaslandırır?*
- *Nofəl nə üçün Məcnuna kömək etmək istəyir?*
- *Məcnun Leyli ilə İbn Səlamın nikahı xəbərini necə qarşılayır?*
- *Atası Məcnunu səhrada niyə axtarırdı?*
- *Ata oğluna necə nəsihət edir?*
- *İbn Səlamın ölümünü Leyli və Məcnun necə qarşılayırlar?*
- *Poemanın bu parçalarında dövrün hansı mənəvi-əxlaqi dəyərləri ifadəsini tapır?* [3, s.87]

Ev tapşırığı da poemanın məzmununun mənimsənilməsinə yönəlib. Ev tapşırığında irəli sürülən tələbə görə, şagirdlər əsərin yerdə qalan hissələrini oxumalıdırlar. Bu parçalar "Leylinin dəvəyə sirrini açması", "Məcnunun öz halını Leyliyə açmaqla bildirməsi", "Leylinin Məcnunu tanıması", "Məcnunun Leyliyə etinasızlığı və saflığını sübut etməsi", "Leylinin Məcnunun davranışını bəyənməsi", "Leylinin anasına vəsiyyəti və ölməsi", "Leylinin vəfatından Məcnunun xəbərdar olması və bu dərdə dözməyib ölməsi", "Sözün (əhvalatın) tamamlanması" bölümləridir.

Artıq qeyd etdiyimiz kimi, şagirdlər təkcə bu başlıqları ardıcıllıqla oxusalar, əsərin ümumi məzmunu haqqında onlarda ümumi təəssürat yaranar.

Şagirdlərə müstəqil şəkildə bu parçaları oxuyarkən diqqətli olmaları, tanış olmayan söz və ifadələri seçib, mənalarını lüğətdən axtarmaları, məcazlara fikir vermələri, yazılı qeydlər apararaq

şifahi təqdimat hazırlamaları tapşırılır. Beləliklə də, şagirdlər əsərin tam məzmunu ilə tanış olandan, poemanın süjet xəttini tam mənimsəyəndən sonra onun təhlilinə hazır olurlar.

Üçüncü dərs poemanın təhlili üzrə işdir. Təhlil prosesi də kiçik qruplar üzrə bölünərək aparılır. Təhlil üçün nəzərdə tutulan əsas məlumatlandırıcı mətn ilə tanış olmaqdan ötrü şagirdlərə qısa vaxt verilir. Müəllimlərin verdiyi suallar əsasında şagirdlər müzakirə aparıb konkret cavablar hazırlayır və qrup liderinin yönəltməsi ilə şifahi təqdim edirlər. Müəllimin cavablara münasibəti nəticəsində daha nələri öyrənməli olduqlarını özləri üçün müəyyən edirlər. Təhlilin bu mərhələsi daha çox əsərin baş qəhrəmanlarının səciyyələndirilməsinə, onların xarakterlərinin açılmasına xidmət edir.

Müəlliflərin qruplarla iş üçün ünvanladığı mətnkənarı suallar isə aşağıdakı kimidir:

- *Poema hansı mövzuda yazılmışdır? Bu mövzu şairin yaradıcılıq meylinə, həyata baxış bucağına nə dərəcədə uyğundur?*
- *Məcnun və Leyli obrazları üçün xarakterik cəhətlər, səciyyəvi davranışlar hansılardır?*
- *Onları müasirlərindən və həmyaşıdlarından fərqləndirən nədir?* və s. [3, s.88]

Dərsin sonunda şagirdlərə verilən ev tapşırığı da təhlilə yönəlib. Müstəqil tədqiqat nəticəsində şagirdlər sinifdə öyrəndikləri məlumatları zənginləşdirməlidirlər. Bunun üçün göstərilən mənbədən (*Məhəmməd Füzulinin 2005-ci ildə nəşr olunmuş altı cilddə "Əsərləri"nin 2-ci cildi, s. 5-6*) əlavə məlumat toplamalıdırlar. Araşdırma apararkən aşağıdakı suallara cavab tapmaq tələb olunur:

- *Poemanın məzmununun Şərq ədəbiyyatında geniş yayılmasına səbəb nədir?*
- *Leyli və Məcnun obrazları müəllifə hansı həyat həqiqətlərinə münasibət bildirmək üçün geniş imkanlar yaradır?* [3, s.88] Göründüyü kimi, ev tapşırığında istifadə olunan suallar əsərin mövzu və ideya xüsusiyyətlərini üzə çıxarmağa xidmət edir.

Dördüncü dərs də poemanın təhlili üzrə işdir. Burada ikinci dərəcəli obrazların təhlili, əsərin bədii quruluşu və sənətkarlıq xüsusiyyətlərini müəyyən etmək məqsəd kimi qarşıya qoyulub. Təhlil üçün işçi mətn verilib. Şagirdlərdən biri birinci mətnkənarı sualı və mətndən bu suala cavab ola biləcək hissəni uca səslə oxuyur. Sual belədir: *Poemadakı digər obrazlar hansı dəyərlərin daşıyıcılarıdır?* Bu obrazlar Məcnun və Leylinin ata-anası, İbn Səlam, Zeyd və Nofəldir. Şagirdlərə Məcnunun atası ilə İbn Səlamı, Leylinin atası ilə Nofəli birləşdirən və fərqləndirən cəhətləri müəyyən etmək tapşırılır. Bunun üçün müəllim lövhədə iki çoxluqlu Venn diaqramı çəkə bilər. Şagirdlərlə müzakirə edərək diaqramın mərkəzində müqayisə olunan obrazların ortaq cəhətlərini, kənarlarına isə fərqli xüsusiyyətlərini müəyyən edib, yaza bilər. Məsələn, Məcnunun atası da, İbn Səlam da mübariz deyillər, taleyin hökmü ilə tez barışırlar. Hər ikisi dərdə dözməyib, nisgildən ölürlər. Məcnunun atası da, İbn Səlam da hər şeyin pul ilə alına biləcəyini düşünürlər. Məcnunun atası köhnə nəslin, İbn Səlam gənc nəslin nümayəndəsidir. Məcnunun atası Allaha inanır, İbn Səlam isə pəridən-cindən qorxur. Məcnunun atası oğlunun düşdüyü vəziyyəti görüb dərddən ölür, İbn Səlamın ölümünə isə Leyliyə olan cismani həvəsi səbəb olur.

Eyni üsulu Leylinin atası ilə Nofəlin müqayisəsində də istifadə etmək olar. Bu iki obrazı da onların şəxsi keyfiyyətləri birləşdirir. Hər ikisi məqsədləri uğrunda döyüşməyə hazırdırlar, bu dünyada hər müşkülün qılınc gücünə həll olunacağına əmindirlər. Lakin Leylinin atası döyüşdə məğlub olsa da, taleyin hökmü qələbə çalır. Nofəl döyüşdə qələbə çalsa da, taleyin hökmünə yenik düşür.

Qeyd edək ki, gənc müəllimlər dərsin bu mərhələsinin daha effektiv qurulması üçün Yaqub Babayevin 2017-ci ildə dərc olunan "Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının tədrisi" məqaləsindən metodiki ədəbiyyat kimi istifadə edə bilərlər. Belə ki, bu məqalədə İbn Səlam, Nofəl surətlərinin təhlili çox aydın və daha konkret verilmişdir. Məsələn, alim Nofəl surətini belə xarakterizə edir: *"Nofəl dünyəvi düşüncələrlə yaşayır. Və məsələni (aşiq və məşuqu bir-birinə qovuşdurmaq – Ə.N.) bu məcrada da həll etmək istəyir. Göstərmək istədiyi xeyirxahlıq həm də şan-şöhrət həvəsi ilə bağlıdır. O öz əməl və fəaliyyətində sərvətə və qılınca arxalanır"* [1, s.13].





Haşiyəyə çıxaraq gənc müəllimlərə məsləhət görərdik ki, Məcnun ilə atasının dialoqlarını təhlilə cəlb edərkən, bu mükalimədən çıxan əxlaqi nəticələri şagirdlərə çatdırarkən onlar sənətkarın "Rindü Zahid", "Fəzliyə nəsihət" kimi əsərlərinə də müraciət edib, məzmunundan çıxış edərək bu əsərlər arasında müəyyən analogiyalar aparsınlar, həmin əsərlərdən seçdikləri kiçik parçaları tələbələrə oxudub, yaxud özləri əzbərdən söyləsinlər. Bu, şagirdlərdə əsərə daha böyük maraq oyadar.

Təhlildə mətnkənarı ikinci sual poemanın bədii xüsusiyyətləri ilə bağlıdır: *"Poemanın uzunömürlü olmasının bir mühüm səbəbi misilsiz bədii gözəlliyidir" fikrini necə əsaslandırarsınız?* sualına şagirdlər müxtəlif cavablar verə bilər. Burada müəllim mətndən çıxış edib, əsərin cəlbedici süjetinə, mükəmməl kompozisiyasına diqqət etməyi, müəllifin yüksək sənətkarlıqla poemada qaldırdığı problemi həll etdiyini, ideyasının mükəmməl bədii həll tapdığını nəzərə çatdırır.

Mətndə Leyli ilə Məcnunun müqayisə edilərək bənzədildikləri parça şair sənətkarlığının ən uca zirvəsi kimi təqdim olunur:

*Leyli demə – cənnət içrə bir hur,*
*Məcnun demə – zülmət içrə bir nur.*
*Leyli demə – övçi-hüsnə bir mah,*
*Məcnun demə – mülki-eşqə bir şah.* [7, s.67]

Növbəti mətnkənarı sual isə əsərin ideyası ilə bağlıdır: *Poemanın ideyaca zəngin olduğunu necə əsaslandırmaq olar?* sualına şagirdlər müzakirə nəticəsində cavab axtarırlar. Belə qənaətə gəlirlər ki, əsərdən çıxan əsas əxlaqi nəticə həqiqi eşqin ölməzliyidir. Aşiqlərin cismani ölümü onların mənəvi qələbəsidir. Əsərin ideyaca zənginliyinin nəticəsidir ki, Füzulinin məşhur "Leyli və Məcnun" poemasının süjeti və mühüm parçalarının əsasında dünya şöhrətli bəstəkar Üzeyir Hacıbəyov 1908-ci ildə Şərqdə ilk operanı yaratmışdır. Əsərin musiqiyə uymasının səbəblərindən biri də həzəc bəhrinin oynaq təfiləsində (*məf Ulü, məfA ilün, fə Ulün* ölçüsündə) qələmə alınmasıdır.

Dərsin yekununda ev tapşırığı olaraq şagirdlərə əlavə mənbələrdən istifadə etməklə sinifdə öyrəndikləri məlumatı daha da zənginləşdirmək tapşırılır. Araşdırma apararkən iki suala cavab axtarmaq tələbi qoyulur:

- *Əsərdəki hansı obrazların nitqinə əsasən müəllifin onlara münasibətini müəyyən etmək mümkündür?*
- *"Poemanın əsasını iki ideologiyanın üz-üzə gəlib toqquşması təşkil edir" fikrini doğru saymaq olarmı?*

Şagirdlər birinci sualı cavablandırarkən əsəri bir daha tam yada salmalı olacaqlar. Bu zaman, sözsüz ki, Leylinin Məcnuna məktubunu, şama, pərvanəyə, dəvəyə xitabını, Məcnunun ata-anasına, Nofələ, Zeydə cavablarını yada salıb müəllifin onlara münasibətini ifadə etdiyini söyləyə biləcəklər.

İkinci sualın cavabını verərkən ya hökmü təsdiq, ya da inkar etməli olacaqlar. Bunun üçün də əsərdə qarşı-qarşıya duran ideologiyanın olub-olmadığını müəyyən etmək tələbi şagirdlərin qarşısında durur. Təəssüf ki, 10-cu sinif "Ədəbiyyat" dərsliyinə əlavə olunan müəllimlər üçün metodiki vəsaitdə bu barədə bir cümlə də olsun gənc müəllimlərə tövsiyə verilmir. Fikrimizcə, əsərdə iki bir-birinə qarşı duran ideologiya yoxdur, bir-birinə qarşı qoyulan eşqə iki fərqli yanaşma var. Bunlardan biri eşqin ötəri bir hiss olduğunu düşünür, hətta xəstəlik kimi qavrayır, digəri isə onu ideallaşdırır, insanı kamilləşdirdiyini təlqin edir. Biri eşqə cismani yaxınlıq, digəri isə ruhi harmoniya kimi baxır. Biz ikinci sualın cavabında: "Yox", – deyirik.

Lakin bu bizim yanaşmamızdır. Şagirdlər fərqli düşünə və: "Bəli", – cavabını da verə bilər. Bu zaman müəllim şagirdin fikrinə hörmətlə yanaşmalı, ondan öz mövqeyini əsaslandırmağı xahiş etməlidir. Bu, şagirdlərdə fikirlərini arqumentləşdirmək bacarığını formalaşdıracaq.

Göründüyü kimi, Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının ümumtəhsil məktəblərinin X sinfində tədrisi sayəsində şagirdlər Azərbaycan dilində fikrin yüksək poetik ifadə və dilin unikal bədii təsvir imkanları ilə tanış olur, estetik zövqünü inkişaf etdirirlər. Bununla yanaşı, insanın daxili aləminə varır, ən ali hiss olan eşqi dərk edirlər. Bu əsərin tədrisi şagirdlərə tolerantlıq, mərhəmət və məsuliyyət kimi humanist dəyərləri aşılayır.

## Nəticə / *Conclusion*

Dahi şairin tək bir əsərinin tədrisinə dair fikirlərimizi ümumiləşdirsək, belə nəticəyə gələ bilərik ki, biz ümumtəhsil məktəblərində şagirdlərin klassik ədəbiyyatı, həmçinin Məhəmməd Füzuli yaradıcılığını mütaliə etməsini, anlamasını, sevməsini istəyiriksə, işi, ilk növbədə, gələcəyin müəllimlərindən başlamalı, anadilli əruzvəznli Orta əsr poetik nümunələrimizi onlara anlatmalı, sevdirməli, öyrətmənin səmərəli üsul və vasitələri ilə tanış etməliyik.

Bunun üçün dərslik və dərs vəsaitlərimiz mövcud tələblərə cavab verməlidir. Çünki nə qədər acı həqiqət olsa da, şagirdlərin böyük bir qisminin oxuduğu yeganə kitab dərslikdir. O elə hazırlanmalıdır ki, öyrənənləri maraqlandırsın, sənətkarın şəxsiyyəti, yaradıcılığı haqqında məlumat əldə etmək üçün mütaliəyə sövq etsin, bədii ədəbiyyatı, xüsusən də klassik irsimizi, həmçinin anadilli ədəbiyyatımızın zirvəsində duran Füzuli şeiriyyətini, Füzuli xəzinəsinin ən qiymətli gövhəri olan "Leyli və Məcnun" poemasını onlara sevdirə bilsin.

Bundan əlavə, Füzuli irsinin, xüsusən də "Leyli və Məcnun" poemasının sinifdənxaric və məktəbdənkənar tədbirlərdə də təbliği, bədii qiraət və esse müsabiqələrində gündəmə gətirilməsi də dahi şairə və onun bu şah əsərinə marağın artması işinə səmərə verə bilər, şagirdlərin şifahi və yazılı nitq vərdişlərinin inkişaf etdirilməsinə töhfə vermiş olar...

## Ədəbiyyat / *References*


1. Babayev, Y. Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının tədrisi / Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2017, № 1.
2. Ədəbiyyat müntəxəbatı. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərs vəsaiti. Təkmilləşdirilmiş ikinci nəşri. Tərt. ed.: Bilal Həsənli. – Bakı: Çaşıoğlu, 2001.
3. Əliyev, S., Həsənov, B., Mustafayeva A. Ümumtəhsil müəssisələrinin 10-cu sinifləri üçün ədəbiyyat fənni üzrə dərslik. – Bakı, 2022.
4. Əlizadə, L. Füzulini tədris edərkən. – Bakı: İrşad, 1995.
5. Fazilova, N. Füzulinin "Leyli və Məcnun" poemasında Zeyd obrazı və onun tədrisinə dair / Azərbaycan dili və ədəbiyyat tədrisi, 2021 № 3 (269).
6. Həsənli, B. X sinif ədəbiyyat dərslərində Məhəmməd Füzulinin həyat və yaradıcılığının öyrənilməsi təcrübəsindən / Azərbaycan dili və ədəbiyyat tədrisi, 2022, № 2 (272).
7. Məhəmməd F. Əsərləri. Altı cilddə, II c. – Bakı: Şərq-Qərb, 2005.
8. Mirzəyev, A. Füzulinin "Əql yar olsaydı..." qəzəlinin təhlili / Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2011. № 2.
9. Verdiyev, İ. Məktəbdəki Füzuli: şairin irsinin tədrisi tarixinə bir nəzər / "525-ci qəzet", 28 fevral 2024-cü il.






# О преподавании поэмы Мухаммеда Физули «Лейли и Меджнун» в общеобразовательных школах

**Азизага Наджафзаде**
Доктор филологических наук, доцент
Универститет Карабах
E-mail: azizaga.najafov@karabakh.edu.az

**Резюме.** В статье представлена подробная информация о преподавании поэмы «Лейли и Меджнун» великого азербайджанского поэта и мыслителя Мухаммеда Физули в средних общеобразовательных школах. Дан общий обзор истории преподавания этого произведения в Азербайджане. Объясняются основные проблемы, возникающие при преподавании произведения в современное время. Выдвигаются предложения по повышению эффективности изучения поэмы учащимися. На основе имеющейся методической литературы по теме дается заключение по преподаванию произведения. Ссылаясь на действующую учебную программу общеобразовательных школ по предмету «Литература» разъясняются часы, отведенные на преподавание поэмы Физули «Лейли и Меджнун», содержание уроков и организация их этапов. Рассмотрены методы обучения, подходящие для каждого урока и его этапа. Молодые преподаватели в своей профессиональной деятельности, лекторы высших учебных заведений, при подготовке текстов лекций по предмету «Методика преподавания литературы», а также студенты, изучающие специальность «Преподавание азербайджанского языка и литературы» на семинарных занятиях могут использовать основные выводы статьи в качестве учебного пособия.

**Ключевые слова:** Мухаммед Физули, «Лейли и Меджнун», поэма, методика преподавания